**“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə” Azərbaycan Respublikasının 2008-ci il 2 iyun tarixli 624-IIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 22-1.8-ci maddəsində nəzərdə tutulmuş dövlət qulluqçusunun əlavə peşə təhsilinin növü, forması, müddəti və maliyyə təminatı qaydalarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. “Dövlət orqanlarında dövlət qulluğuna müsabiqə vasitəsi ilə qəbul Qaydaları”nın yeni layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.5. öz səlahiyyətləri daxilində “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə” Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

~~2. Müəyyən edilsin ki:~~ [1]

~~2.1. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 17.5-ci, 25.4-cü maddələrində, 27.3-cü maddəsinin ikinci cümləsində və 28.6-cı maddəsinin altıncı və səkkizinci cümlələrində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;~~

~~2.2. həmin Qanunun 22-1.8-ci maddəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;~~

~~2.3. həmin Qanunun 8.1.7-ci maddəsində (üçüncü halda), 11.1.7-ci maddəsində (birinci halda), 11.1.8-ci maddəsində (birinci halda), 11.1.9-cu maddəsində (birinci halda) “müvafiq icra hakimiyyəti orqanı” dedikdə mərkəzi icra hakimiyyəti orqanları, 8.1.7-ci maddəsində (dördüncü halda), 11.1.7-ci maddəsində (ikinci halda), 11.1.8-ci maddəsində (ikinci halda), 11.1.9-cu maddəsində (ikinci halda) “müvafiq icra hakimiyyəti orqanı” dedikdə, Azərbaycan Respublikasının Bakı Şəhər İcra Hakimiyyəti nəzərdə tutulur;~~ [2]

~~2.4. həmin Qanunun 25.8-ci maddəsinin birinci cümləsində, 28.9-cu maddəsində, 31.2-ci maddəsinin birinci cümləsində, 31.5-ci maddəsində və 31.21-ci maddəsinin birinci və ikinci cümlələrində “müvafiq icra hakimiyyəti orqanı” dedikdə, tabelik qaydasında yuxarı dövlət orqanı nəzərdə tutulur;~~

*~~2.5. həmin Qanunun 28.2-ci maddəsinin birinci və üçüncü cümlələrində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya həyata keçirir.~~* [3]

3. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa əlavələr edilməsi barədə” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 28 fevral tarixli 535 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 2, maddə 101) 2-ci bəndi çıxarılsın.

4. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 oktyabr 2008-ci il
830

-

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 19 dekabr 2012-ci il tarixli **771** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Respublika” qəzeti 20 dekabr 2012-ci, 284, “Azərbaycan” qəzeti 21 dekabr 2012-ci, 285, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 12, maddə 1245**)
2. 16 may 2017-ci il tarixli **1397** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 18 may 2017-ci il, 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5, maddə 801**)
3. 7 iyul 2020-ci il tarixli **1091** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 8 iyul 2020-ci il, 130, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 7, maddə 871**)

**FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

[1] 7 iyul 2020-ci il tarixli **1091** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 8 iyul 2020-ci il, 130, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 7, maddə 871**) ilə 2-ci hissə ləğv edilmişdir.

[2] 19 dekabr 2012-ci il tarixli **771** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Respublika” qəzeti 20 dekabr 2012-ci, 284,**

**“Azərbaycan” qəzeti 21 dekabr 2012-ci, 285, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 12, maddə 1245** ) ilə 2.3-cü bəndi ləğv edilmişdir.

[3] 16 may 2017-ci il tarixli **1397** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 18 may 2017-ci il, 105 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5, maddə 801**) ilə 2.5-ci bənd ləğv edilmişdir.